# "PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ÜZRƏ" KOMMERSİYA TƏŞKİLATLARI ÜÇÜN MİLLİ MÜHASİBAT UÇOTU STANDARTININ TƏTBİQİ İLƏ BAĞLI BƏZİ NƏZƏRİ ASPEKTLƏR

**E.O.Cəfərov,**
*iqtisadçı,*
*iqtisad elmləri namizədi*

**Açar sözlər:** *pul vəsaitinin hərəkəti haqqında hesabatın hazırlanması, mühasibat balansı, mənfəət və zərər haqda hesabat, onların tərtib olunması və izahı*

Bu məqalənin məqsədi maliyyə hesabatlarının tərtib olunması ilə bağlı "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üzrə" Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartında göstərilən tələblərin açıqlanmasından ibarətdir.

Məqalədə sözügedən standartın tələblərinə uyğun olaraq pul vəsaitlərinin hərəkəti haqqında hesabatı tərtib etmək üçün onun hesabat dövrü ərzində hazırlanmasına təsir edən əsas amillər öz əksini tapmışdır.

Bu məqalədə sözügedən standartın tətbiqi üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat formasının tərtib olunmasına dair izahlı nümunə verilmişdir.

Hazırkı məqalə mühasiblər tərəfindən "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üzrə" Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı barədə daha ətraflı biliklərin əldə olunması və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın daha düzgün tərtib olunması işində köməklik göstərəcəkdir.

Nağd pul vəsaitləri müəssisənin fəaliyyətinin davam etməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Hətta hesabat dövrləri ərzində mənfəət əldə etmiş müəssisələr, onların fəaliyyəti nəticəsində yaranmış kreditor borclarını ödəmək üçün nağd pul vəsaitlərinə malik olmadığı halda iflasa uğraya bilərlər.

Mənfəət və zərər haqqında hesabatda hesabat dövründə müəssisə tərəfindən əldə olunmuş gəlir, mühasibat balansında isə hesabat dövrünün sonuna müəssisənin maliyyə vəziyyətinin açıqlanmasına baxmayaraq, bu hesabatlardan müəssisənin nağd pul vəsaitlərinin istiqamətlər üzrə hərəkətinin vəziyyəti barədə informasiyanı əldə etmək olmur.

Başqa sözlə, müəssisənin "Mühasibat Balansı" və "Mənfəət və Zərər haqqında" hesabatları bu hesabatların istifadəçilərini müəssisənin hesabat dövrü ərzində mövcud olan maliyyə vəziyyəti və nəticələri barədə maliyyə informasiyası ilə tam təmin etmədiyinə görə pul vəsaitlərinin hərəkəti haqqında hesabatının hazırlanması sözügedən informasiyanın daha şəffaf təqdimatı üçün xüsusi əhəmiyyət kəsb edir.

Maliyyə hesabatının əhəmiyyətlilik prinsipinə cavab verməsi üçün müəssisə tərəfindən həmçinin onun fəaliyyəti ilə bağlı pul vəsaitlərinin hansı mənbələrdən əldə olması və istifadəsi üzrə maliyyə informasiyalarının bu vəsaitlərinin hərəkəti haqqında müvafiq hesabatda açıqlanması son dərəcədə vacibdir.

**Məqsəd**

Bu mövzunun məqsədi "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat"ın tərtib olunması ilə bağlı standartda göstərilən tələblərin açıqlanmasından ibarətdir.

**Nəticələr**

Bu mövzu üzrə iştirakçılar aşağıdakıları əldə edirlər:

- "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat"ın tərtibinə təsir edən əsas amillər barədə bilik;
- "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat"ın tərtibatından əvvəl və bu hesabatın tərtibatı zamanı nəzərə alınmalı olan problemlər barədə bilik;
- "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat"ın standartın tələblərinə uyğun olaraq tərtib edilməsi bacarığı;
- Standartın tələblərinə əsasən bu hesabatın tərkib hissəsi olan "Uçot siyasəti və izahlı qeydlər"in hazırlanması bacarığı.

**Standartda istifadə olunan əsas anlayışlar**

**Pul vəsaitləri** – müəssisənin fəaliyyəti ilə bağlı, onun xəzinəsində, bank hesablarında saxlanılan və tələblər əsasında ödənilən vəsaitlərdir.

**Pul vəsaitlərinin ekvivalentləri** – qısamüddətli pul öhdəliklərinin yerinə yetirilməsi üçün nəzərdə tutulan, əvvəlcədən məlum olan məbləğə asan çevrilə bilən və dəyərin dəyişməsi riskinə cüzi məruz qalan yüksək likvidli qoyuluşlardır.

**Pul vəsaitlərinin hərəkəti** – müəssisənin aktivlərinin satışı və alınması, habelə yaranmış öhdəliklərinin ödənilməsi fəaliyyətləri üzrə pul vəsaitlərinin mədaxili və məxaricidir.

**Əməliyyat fəaliyyəti** – müəssisənin malların satışı, işlərin və xidmətlərin görülməsi üzrə əsas gəlir gətirən fəaliyyətidir.

**İnvestisiya fəaliyyəti** – kreditlərin və faiz xərclərini yaradan digər borcların verilməsi və geri alınması, pul vəsaitlərinin ekvivalentlərinə aid olmayan investisiyaların, habelə uzunmüddətli aktivlərin əldə edilməsi və xaricolmasıdır.

**Maliyyələşdirmə üzrə fəaliyyət** – müəssisənin mülkiyyətçilərinin qoyuluşları və mülkiyyətçilər arasında kapitalın bölüşdürmələri, habelə üçüncü tərəfdən borcların alınması və onların geri ödənilməsidir.

**Bank overdraftı** – öz öhdəliklərinin kredit təşkilatının vəsaiti hesabına ödənilməsi üçün müəssisə ilə kredit təşkilatı arasında bağlanmış xüsusi müqaviləyə əsasən müəssisənin bu kredit təşkilatı qarşısında yaranan qısamüddətli öhdəliyidir.

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması**

Standartın müddəalarına əsasən müəssisədə pul vəsaitlərinin baş vermiş hər hansı hərəkəti aşağıdakı fəaliyyət növlərinə uyğun olaraq təsnifləşdirilməlidir:

- Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti;
- İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti;
- Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədi istifadəçiləri hesabat dövrü ərzində müəssisənin pul vəsaitlərinin müəyyən istiqamətlər üzrə axını və bunun nəticəsi olaraq bu axının maliyyə elementlərinin dəyişdirilməsinə təsir göstərən açıqlanmalar barədə məlumatın təmin etməkdən ibarətdir.

Bu məlumatı digər müvafiq maliyyə hesabatlarında göstərilməsi mümkün olmadığı üçün sözügedən hesabat istifadəçilərin marağındadır. Məsələn; mənfəət və zərər haqqında maliyyə hesabatında hesablama metodu əsasında maliyyə nəticələri və ya gəlir, xərc, mənfəət və müəyyən olunmuş Hesablar Planına uyğun olaraq, onların açıqlanmasını təmin edən müvafiq subhesablar üzrə digər informasiyalar tanınmalıdır.

Bu səbəbdən əsas əməliyyat gəliri müəssisənin hesabat dövrü ərzində hər hansı aparılmış maliyyə əməliyyatları nəticəsində yaranmış pul vəsaitlərinin mədaxilindən və məxaricindən fərqli olaraq, həmin dövrdə hesablanmış ümumi gəlirin və xərcin məbləğini əks etdirir.

Hesablanmış gəlirdən çıxılmalı olan bu xərcin nəticəsi olaraq mənfəət özündə qeyri-monitar maddələri əks etdirdiyi üçün pul vəsaitinin hərəkəti üzrə yaranmış qalıq məbləğinə bərabər olmaya bilər.

Başqa bir misal; pul vəsaitlərinin daxilolmalarının və xaricolmalarının bir çox mənbələri mənfəət və zərər haqqında hesabatda təqdim olunur. Amma bu əməliyyatların nəticələri mühasibat balansında və kapitalda dəyişikliklər haqqında hesabatda əks olunur. Bu zaman müəssisə tərəfindən kreditlərin və borcların alınmasından pul vəsaitlərinin mədaxili müəssisənin balansında öhdəliklərin artması kimi, səhmdarlara dividendlərin ödənilməsi isə kapitalda dəyişikliklər haqqında hesabatda əks etdirilir.

Uzunmüddətli aktivlərin və qısamüddətli investisiyaların əldə olunması və satışı, borcların alınması və verilməsi müəssisənin əsas gəlir gətirən fəaliyyətinə aid olduqda, müəssisə bu əməliyyatlardan yaranan pul vəsaitlərinin hərəkətini əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti kimi təsnifləşdirməlidir.

Müəssisə qəbul etdiyi uçot siyasətinə uyğun olaraq əməliyyat fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin hərəkətini birbaşa və ya dolayı metodlar əsasında hazırlaya bilər.

Eyni zamanda hesabatın birbaşa metodun tətbiqinə üstünlük verən müəssisə standartın tələblərinə uyğun olaraq, həmçinin həmin hesabatın dolayı metod əsasında hazırlanmasını təmin etməlidir.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarını birbaşa metodu tətbiq etməklə hazırlayan müəssisələr əməliyyat fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları və xaricolmaları ilə bağlı maliyyə hesabatlarının müvafiq maddələr və izahlı qeydlər əsasında aşağıdakı əsas çıxarışları göstərməlidir:

(a) məhsulun (malların), iş və xidmətlərin satılması ilə bağlı alıcı və sifarişçilərdən pul vəsaitlərinin daxilolmaları;

(b) ehtiyatların alınması, yaradılması, işçilərin əməkhaqlarının ödənilməsi üzrə pul vəsaitlərinin xaricolmaları;

(c) əməliyyatlardan əldə olunan pul vəsaitlərinin daxilolmaları;

(ç) faizlərin ödənilməsi üzrə pul vəsaitlərinin xaricolmaları;

(d) mənfəət vergisinin ödənilməsi üzrə pul vəsaitlərinin xaricolmaları;

(e) əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti.

Dolayı metodun tətbiqi zamanı müəssisələr isə hesabladığı xalis mənfəət və ya zərərin məbləğlərinə əməliyyat

fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin hərəkəti ilə bağlı maliyyə hesabatlarının müvafiq maddələr və izahlı qeydlər əsasında aşağıdakı əsas düzəlişlərin, dəyişikliklərin edilməsi yolu ilə sözügedən hesabatı hazırlamalıdır:

(a) hesabat dövründə xalis mənfəət və ya zərər;

(b) aşağıdakı maddələr üzrə düzəlişlər:

1) azlıq təşkil edən mülkiyyətçilərin payı;

2) fövqəladə gəlirlər və xərclər;

3) mənfəət vergisi üzrə xərclər;

4) qeyri-pul maddələri üzrə gəlirlər və xərclər;

5) investisiya fəaliyyətinə və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr.

(c) aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər:

1) ehtiyatlar;

2) əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri;

3) əməliyyat kreditor borcları və hesablaşmalar;

(ç) əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti;

(d) ödənilmiş (qaytarılmış) mənfəət vergisi,

(e) əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti.

Bu standartla müəssisələr üçün müəyyən edilmiş investisiya və maliyyələşdirmə üzrə fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti haqqında məlumatın hazırlanması qaydası əməliyyat fəaliyyəti nəticəsində yaranan sözügedən vəsaitlərin hərəkəti ilə bağlı birbaşa və dolayı metodlarının tətbiqini həyata keçirən müəssisələrə şamil olunur.

İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti haqqında məlumatın hazırlanması zamanı sözügedən hesabata hesablaşmalar əsasında aşağıdakı maddələr üzrə məbləğlər daxil edilməlidir:

(a) komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla, uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları;

(b) uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları;

(c) törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin xaricolmaları;

(ç) törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları;

(d) digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları;

(e) digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları;

(ə) törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları;

(f) törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları;

(g) fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları;

(ğ) fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları;

(h) dividendlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları;

(x) alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları;

(ı) investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti.

Pul vəsaitlərinin hərəkətinin netto əsasında təqdim edildiyi hallar istisna olmaqla, müəssisə investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin daxilolmalarının və xaricolmalarının əsas növləri haqqında məlumatı ayrıca təqdim etməlidir.

Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti haqqında məlumatın hazırlanması prosesində isə həmin hesabata hesablaşmalarla müəyyən edilən aşağıdakı maddələr üzrə daxilolmalar və xaricolmalar daxil edilməlidir:

(a) səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları;

(b) müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları;

(c) borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları;

(ç) borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları;

(d) məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları;

(e) məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları;

(ə) maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları;

(f) dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları;

(g) faizlər şəklində pul vəsaitlərinin xaricolmaları;

(ğ) maliyyələşdirmə üzrə investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti.

Pul vəsaitlərinin hərəkətinin netto əsasında təqdim edildiyi hallar istisna olmaqla, maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkətinin əsas növləri haqqında ayrıca təqdim olunan məlumatı açıqlamalıdır.

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması üzrə nümunəvi misal:**

Standartın tələblərinə uyğun olaraq müəssisə tərəfindən pul vəsaitlərinin hərəkəti haqqında hesabatın dolayı metodun tətbiqini, müəssisənin bu hesabatın həmin hesabat dövründə tərtib edilmiş mühasibat balansı, mənfəət və zərər haqqında hesabatının maddələrində təqdim edilmiş məlumatlar və onların açıqlanması üzrə müvafiq izahlı qeydlər əsasında hazırlanmasını nəzərə alaraq, sözügedən hesabatlar müvafiq qeydlərlə birlikdə, habelə pul vəsaitlərinin hərəkəti haqqında hesabatında əks olunmuş məbləğlərin açıqlanmasına dair hesablamalar nümunəvi misal kimi təqdim edilir.

**A) Mühasibat balansı**

Ölçü vahidi: manat

| Bölmənin, maddənin nömrəsi | Bölmənin, maddənin adı | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| 1 | Uzunmüddətli aktivlər | | |
| 10 | Qeyri-maddi aktivlər | 4800 | 6000 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 427300 | 501800 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | 17000 | 20000 |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | 79000 | 24000 |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | 20000 | 12000 |
| 19 | Sair uzunmüddətli aktivlər | 39400 | 14200 |
| | CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | **587500** | **578000** |
| 2 | Qısamüddətli aktivlər | | |
| 20 | Ehtiyatlar | 61300 | 144870 |
| 21 | Qısamüddətli debitor borcları | 108550 | 27500 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | ~~333000~~ 317800 | 251500 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 5000 | 11000 |
| 24 | Sair qısamüddətli aktivlər | 9000 | 13000 |
| | CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | **501650** | **447870** |
| | CƏMİ AKTİVLƏR | **1089150** | **1025870** |
| | KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | |
| 3 | Kapital | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 30000 | 10000 |
| 31 | Emissiya gəliri | 8000 | 2000 |
| 32 | Geri alınmış kapital (səhmlər) | | |

| | | | |
|---|---|---|---|
| 33 | Kapital ehtiyatları | 90000 | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 30600 | 7270 |
| | CƏMİ KAPİTAL | 158600 | 19270 |
| 4 | Uzunmüddətli öhdəliklər | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | **363210** | **455000** |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | 2200 | 3200 |
| | CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | 365410 | 458200 |
| 5 | Qısamüddətli öhdəliklər | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 17600 | 12500 |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 5900 | 2700 |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 5800 | 18800 |
| 53 | Qısamüddətli kreditor borcları | 501840 | 514400 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 34000 | - |
| | CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | 565140 | 548400 |
| | CƏMİ ÖHDƏLİKLƏR | 930550 | 1006600 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 1089150 | 1025870 |

**B) Mənfəət və zərər haqqında hesabat (xərclərin funksiyaları üzrə)**

Ölçü vahidi: manat

| **Bölmənin, maddənin nömrəsi** | **Bölmənin, maddənin adı** | **Hesabat dövrü üzrə** |
|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 395950 |
| 70 | Satışın maya dəyəri | (371150) |
| | Ümumi Mənfəət | 14800 |
| 61 | Sair əməliyyat gəlirləri | 40200 |
| 71 | Kommersiya xərcləri | (4000) |
| 72 | İnzibati xərclər | (11000) |
| 73 | Sair əməliyyat xərcləri | (8000) |
| | Əməliyyat mənfəəti (zərəri) | 32000 |
| 63 | Maliyyə gəliri | 8800 |
| 75 | Maliyyə xərcləri | (6090) |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | 22800 |
| | Vergiqoymadan əvvəl mənfəət (zərər) | 57510 |
| 90 | Mənfəət vergisi | (11380) |
| 80 | Hesabat dövründə xalis mənfəət (zərər) | 46130 |

**C) İzahlı qeydlər**

**1. Qeyri-maddi aktivlər**

Müəssisə tərəfindən əvvəlki dövrlərdə 6000 manat məbləğində alınmış qeyri-maddi aktivlərə 1200 məbləğində amortizasiya ayırmaları hesablanılmış və həmin aktivin balans dəyəri müvafiq olaraq 4800 manat məbləğində uçotda əks etdirilmişdir.

**2. Torpaq**

Torpaq amortizasiya olunmayan aktiv olduğu üçün bu aktivin istismarı zamanı amortizasiyanın hesablanması üzrə əməliyyat həyata keçirilmir. Müəssisə əvvəlki dövrlərdə alınan torpaq sahəsinin dəyərini 50000 manat məbləğində balansına götürmüşdür.

**3. Tikili**

Müəssisənin əvvəlki dövrdə 50000 manat məbləğində balansında olan tikili obyektlərinin hesabat dövründə ədalətli dəyərlə yenidən qiymətləndirilməsindən sonra onların dəyəri 140000 manat məbləğində və yenidən qiymətləndirmənin həyata keçirildiyi tarixdə qalan faydalı istifadə müddəti 20 il müəyyən edilmişdir.

Müəssisənin qəbul etdiyi uçot siyasətinə uyğun olaraq hesabat dövründə tikili üzrə amortizasiya ayırmaları 7000 manat məbləğində hesablanılmış və həmin aktivin balans dəyəri 133000 manatla uçota alınmışdır.

**4. İstismarda olan avadanlıq**

Müəssisənin uçot siyasətinə əsasən əvvəlki dövrdə 150000 manat dəyərində alınmış avadanlığın dəyəri 2014-cü ildə 130000 manat məbləğində qismən ödənilmişdir. Sözügedən avadanlıq üzrə hesabat dövründə 24700 manat məbləğində amortizasiya ayırmaları hesablanılmış və balans dəyəri 125300 manat məbləğində müəyyən olunmuşdur.

**5. İstismar üçün səmərəsiz hesab olunan avadanlıqların satışı**

Müəssisənin həyata keçirdiyi adi fəaliyyət nəticəsində bilavasitə gəlir əldə olunmasında iştirak etməyən, lakin bu fəaliyyətə xidmət edən oxşar və eyni məzmunlu hadisələr üzrə yaranmış gəlirlər müvafiq xərclərlə qarşılıqlı əvəzedilməsi yolu ilə maliyyə hesabatlarında netto əsasında təqdim edilir.

Müəssisənin əsas fəaliyyətinə xidmətini təkmilləşdirmək məqsədi ilə müəssisə əvvəlki dövrdə 180000 manat və 100000 manat məbləğində əldə etdiyi avdanlıqlara 53200 manat məbləğində amortizasiya ayırmalarını hesablamış və onları həmin dövrdə müvafiq olaraq 146800 (180000-33200) manat və 80000 (100000-20000) manat məbləğində balans dəyəri ilə uçota almışdır.

Hesabat dövründə avadanlıqların yeni modelin buraxılması ilə istismarda olan bu dəzgahların xaricolmasına zərurət yaranmışdır. Həmin avadanlıqlar birinci halda 30200 manat mənfəətlə, ikinci halda isə 8000 manat zərərlə satılmışdır.

**6. İstismar üçün səmərəsiz avadanlıqları əvəz edən yeni avadanlığın alınması**

İstismar üçün səmərəsiz olan satılmış avadanlıqların əvəzinə müəssisə hesabat dövründə 120000 manat məbləğində əsas fəaliyyətinə xidmətini təkmilləşdirən yeni avadanlığı alınmış və ona 21000 manat məbləğində amortizasiya ayırmalarını hesablamaqla 99000 manat məbləğində balansında əks etdirmişdir.

**7. Maliyyə icarəsi**

Əvvəlki dövrdə 25000 manat məbləğində vəsaitin kapitallaşdırılması nəticəsində beş il müddətə daşınmaz əmlak maliyyə icarəsinə götürülmüşdür.

Hesabat dövründə həmin aktiv üzrə amortizasiya ayırmaları 5000 (25000* 20%) manat məbləğində hesablanmış, balans dəyəri isə müəssisənin mühasibat balansında 20000 (25000-5000) manat məbləğində uçota alınmışdır.

Müəssisə tərəfindən hesabat dövründə 6875 manat məbləğində icarə ödənişləri həyata keçirilmişdir.

Bu əməliyyat maliyyə icarəsi olduğu üçün hesablanmış qısamüddətli və uzunmüddətli öhdəliklər müəssisənin mühasibat balansında, faiz xərcləri isə müəssisənin mənfəət və ya zərər haqqında hesabatda əks etdirilmişdir.

Bizim misalda hesabat dövründə ödənilmiş birinci icarə ödənişi ilə əlaqədar hesabat dövründə maliyyə icarəsi üzrə uzunmüddətli öhdəliklər 20125 (25000-4875) manat məbləğində, faiz xərcləri isə 8 faiz dərəcə ilə 2000 (25000*8%) manat məbləğində müəyyən edilmişdir.

**8. Daşınmaz əmlaka investisiyalar**

Müəssisə tərəfindən əvvəlki dövrdə investisiya hesabına 20000 manat məbləğində alınmış daşınmaz əmlaka hesabat dövründə 3000 məbləğində amortizasiya ayırmaları hesablanılmış və həmin əmlakın balans dəyəri 17000 məbləğində təşkil etmişdir.

**Əvəzsiz alınan avadanlıq**

Hesabat dövründə 25200 manat dəyərində əldə olunmuş digər uzunmüddətli aktivlərdən 10000 manatı əvəzsiz olaraq uçota alınmış və müvafiq olaraq gəlirə aid edilmişdir.

**10. Uzunmüddətli aktivlərə hesablanılmış amortizasiya ayırmaları**

Hesabat dövründə müəssisənin fəaliyyəti ilə bağlı aşağıdakı məbləğdə amortizasiya ayırmaları hesablanılmışdır:

| | |
|---|---|
| - Qeyri-maddi aktivlər | 1200 |
| - Torpaq, tikili və avadanlıqlar | 57700 |
| o cümlədən | |
| tikili | 7000 |
| avadanlıqlar | 45700 |
| - İnvestisiya icarəsi ilə alınan əmlak | 5000 |
| Cəmi investisiyalar hesabına alınan əmlak | 3000 |
| Cəmi amortizasiya ayırmaları | 61900 |

**11. Qısamüddətli debitor borcları**

Müəssisənin mühasibat balansında təqdim olunmuş qısamüddətli debitor borcları müəssisə tərəfindən həmin dövrləri əhatə etmiş və müvafiq hesablar üzrə açıqlanmaqla dövriyyə balansında aşağıdakı kimi uçota alınmışdır:

| | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|
| - Alıcıların və sifarişçilərin qısamüddətli debitor borcları | 81450 | 8500 |
| - Törəmə (asılı) müəssisələrin qısamüddətli debitor borcları | 17300 | 17000 |
| - Tikinti müqavilələri üzrə qısamüddətli debitor borcları | 8000 | – |
| - Faizlər üzrə qısamüddətli debitor borcları | 1800 | 2000 |
| Cəmi Qısamüddətli debitor borcları | 108550 | 27500 |

**12. Pul vəsaitləri və onların ekvivalentləri**

Müəssisənin mühasibat balansında təqdim olunmuş pul vəsaitləri və onların ekvivalentləri müəssisə tərəfindən həmin dövrləri əhatə etmiş və müvafiq hesablar üzrə açıqlanmaqla dövriyyə balansında aşağıdakı kimi uçota alınmışdır:

| | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|
| - Bank hesablaşma hesabı | 312800 | 243000 |
| - Pul vəsaitlərinin ekvivalentləri | 5000 | 8500 |
| Cəmi Pul vəsaitləri və onların ekvivalentləri | 317800 | 251500 |

**13. Emissiya gəliri**

Müəssisənin mühasibat balansında göstərilən səhmlərin nominal dəyəri 1 manat məbləğində uçota alınmış və hesabat dövründə onların buraxılması ilə əlaqədar 28000 manat məbləğində pul vəsaitlərinin daxilolmaları əldə edilmiş və müvafiq olaraq 2000 manat məbləğində pul vəsaiti ödənilmişdir.

**14. Uzunmüddətli bank kreditləri**

Müəssisə əvvəlki dövrdə 408500 manat məbləğində 6 il müddətə ödənilməsini nəzərdə tutulan uzunmüddətli bank krediti əldə etmişdir. Bu kredit müəssisəyə illik 80000 manat məbləğində əsas borcun və ona hesablanılmış 1 faiz dərəcə ilə xərclər daxil olmaqla ödənişlərin həyata keçirilməsi şərti əsasında verilmişdir.

Müəssisə tərəfindən hesabat dövründə 80000 manat məbləğində, o cümlədən əsas borc üzrə 75915 manat məbləğində və alınmış uzunmüddətli borclar üzrə faiz xərcləri 4085 (408500*1%) manat məbləğində ödənilmişdir.

Müəssisənin hesabat dövrü ərzində sözügedən kreditin əsas borcu üzrə 75910 manat məbləğində vəsaitin ödənilməsi ilə əlaqədar hesabat dövründə müəssisənin mühasibat balansında uzunmüddətli bank kreditləri 332590 (408500-75910) manat məbləğində uçota alınmışdır.

Müvafiq olaraq 4080 (80000-75910) manat məbləğində ödənilmiş faiz xərcləri, onun mənfəət və zərər haqqında hesabatında xərc maddəsində uçota alınmışdır.

**15. Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər**

Müəssisənin mühasibat balansında təqdim olunmuş qısamüddətli faiz xərcləri yaradan öhdəliklər müəssisə tərəfindən həmin dövrləri əhatə etmiş və müvafiq hesablar üzrə açıqlanmaqla dövriyyə balansında aşağıdakı kimi uçota alınmışdır:

| | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|
| - Qısamüddətli borclar | 7000 | 4000 |
| - Digər qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 10600 | 8500 |
| Cəmi Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 17600 | 12500 |

**16. Qısamüddətli hüquqi öhdəliklər**

Müəssisənin işçilərindən biri təhlükəsizlik qaydalarına riayət olunmaması nəticəsində ciddi zədə aldığına görə müəssisəni məhkəməyə vermişdir.

Məhkəmənin qərarına əsasən müəssisənin zərəri səhlənkarlığa görə 3800 manat və məhkəmə işi ilə bağlı xərclər 1200 manat məbləğində müəyyən edilmiş və ödənilməsi tələb olunan bu öhdəliklər müəssisənin mühasibat balansında uçota alınmaqla xərc kimi onun mənfəət və zərər hesabatında tanınmışdır.

**17. Sair qısamüddətli öhdəliklər**

Müəssisə hesabat dövrü ərzində 34000 manat məbləğində yerinə yetiriləcək iş və xidmətlərə görə sifarişçi ilə bağlamış və müqavilə şərtlərinə uyğun olaraq həmin sifarişçidən qeyd olunan vəsaiti avans şəklində əldə etmişdir.

Lakin bu iş və xidmətlər hesabat dövrü ərzində yerinə yetirilmədiyi üçün onun mühasibat balansında sair qısamüddətli öhdəliklər kimi uçota alınmışdır.

**Ç) Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

Ölçü vahidi: manat

| Bölmənin, maddənin adı | Qeydlər | Hesabat dövrü |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| hesabat dövründə xalis mənfəət və ya zərər | (1) | 46130 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | |
| mənfəət vergisi üzrə xərclər | (2) | 11380 |
| qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | (3) | 51900 |

| | | |
|---|---|---|
| investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr | (4) | (47710) |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | |
| ehtiyatlar | (5) | 83570 |
| əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri: | (6) | (76950) |
| əməliyyat kreditor borcları və hesablamalar: | (7) | 24640 |
| ödənilmiş (qaytarılmış) mənfəət vergisi | (8) | (25380) |
| əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | 67580 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | |
| komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları | (9) | (120000) |
| uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | (10) | 249000 |
| törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin xaricolmaları | (11) | (55000) |
| digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları | (12) | (23200) |
| digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | (13) | 6000 |
| dividendlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | (14) | 22500 |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları<br>İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | (15) | 9000 |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | (16) | 88300 |
| müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları | (17) | 28000 |
| borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | (18) | (4500) |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | (19) | 3000 |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | (20) | (6500) |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | (21) | (75910) |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | (22) | (4880) |
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | (23) | (24800) |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | (490) |
| Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | (86080) |
| bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği | | 69800<br>243000 |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | (24) | 69800 |
| bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı | | 312800 |

**D) Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması prosesində hesablamaların aparılması**

Bu nümunədə mühasibat balansına, mənfəət və zərər haqqında hesabata və bu hesablarla əlaqəli müvafiq izahlı qeydlərə istinad olunmaqla, pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hər maddəsində göstərilən məbləğlərin hesablanması açıqlanır.

**(1) Hesabat dövründə xalis mənfəət və ya zərər**

Xərclərin funksiyalarına görə mənfəət və zərər haqqında hesabata əsasən hesabat dövründə xalis mənfəət (zərər) maddəsində **46130** manat məbləğində göstərilmişdir. Bu maddədə müəssisənin hesabat dövründə hesablanılmış mənfəətinin göstərildiyini və ya pul vəsaitlərinin xalis daxilolmaları haqqında informasiyanın özündə əks etdirilmədiyini nəzərə alaraq, dolayı metoduna uyğun hesabatı hazırlayan müəssisə həmin məbləği əsas götürməklə əməliyyat fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin hərəkəti ilə bağlı müvafiq düzəlişlərinin və dəyişikliklərinin aparılmasını təmin edir.

**(2) Mənfəət vergisi üzrə xərclər**

Burada xərclərin funksiyalarına görə mənfəət və zərər haqqında hesabatına əsasən **11380** manat məbləğində hesabat dövründə büdcəyə ödəniləcək hesablanılmış mənfəət vergisinin məbləği göstərilir və həmin dövr ərzində mənfəət vergisinin ödənilməsini nəzərə alaraq əməliyyat fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin hərəkətinin müəyyən edilməsi üçün həmin məbləğ müvafiq düzəliş kimi xalis mənfəətin məbləğinə əlavə olunur.

**(3) Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər**

Qeyri-pul maddəsi kimi təsnifləşdirilən amortizasiya barədə informasiya xərclərin xüsusiyyətlərinə görə mənfəət və zərər haqqında hesabatda və maliyyə hesabatlarına əlavə edilmiş müvafiq izahlı qeydlərin bölməsində açıqlanır. Hesabat dövrü ərzində **61900** manat məbləğində hesablanılmış və xərcə silinmiş amortizasiya ayırmaları müəssisənin hesabında saxlanıldığına görə əməliyyat fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin daxilolmalarını artıran maddə kimi düzəliş nəzərə alınmalıdır.

Maliyyə hesabatlarına əlavə edilmiş müvafiq izahlı qeydlərində hesabat dövründə əvəzsiz olaraq 10000 manat məbləğində balansa alınmış və gəlir kimi uçotda tanınmış uzunmüddətli aktiv barədə məlumat verilir. Sözügedən aktiv qeyri-pul əməliyyatına aid edildiyindən əməliyyat fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin daxilolmalarını təmin etmir və bu səbəbdən onların həcminin hesablanılmış gəlirlərlə müqayisədə həmin məbləğ qədər azaldılması üçün müvafiq düzəliş aparılmalıdır.

Qeyri-pul maddələri üzrə gəlirlər və xərclərlə bağlı düzəlişlərin hesablanması:

| | |
|---|---|
| - amortizasiya ayırmaları | 61900 |
| - Əvəzsiz alınan avadanlıq | (10000) |
| **Cəmi** | **51900** |

**(4) İnvestisiya fəaliyyəti və maliyyələşdirmə üzrə fəaliyyətlə bağlı maddələr**

Xərclərin funksiyalarına görə mənfəət və zərər haqqında hesabata və maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən hesabat dövründə investisiya fəaliyyəti və maliyyələşdirmə üzrə fəaliyyətlə bağlı avadanlıqların satışından 22200 (30200-8000) manat məbləğində sair gəlirin, faizlərin əldə edilməsi üzrə 8800 manat məbləğində maliyyə gəlirinin hesablanması, faizlərin ödənilməsi üzrə 6090 manat məbləğində maliyyə xərcinin və dividendlərin alınması üzrə 22800 manat məbləğində asılı və birgə müəssisənin mənfəətlərində (zərərlərində) payın tanınması göstərilmişdir.

Bu məbləğlərin hesablanılması və açıqlanması hesabatın "İnvestisiya fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti" və "Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti" bölmələrində tələb olduğundan həmin məbləğlər əməliyyat fəaliyyəti nəticəsində yaranan pul vəsaitlərinin hərəkəti bölməsində müvafiq düzəlişlərlə nəzərə alınmamalıdır.

İnvestisiya fəaliyyəti və maliyyələşdirmə üzrə fəaliyyətlə bağlı maddələrə düzəlişlərin hesablanması:

| | |
|---|---|
| - avadanlıqların satışı | (22200) |
| - faizlərin əldə edilməsi | (8800) |

| | |
|---|---|
| - faizlərin ödənilməsi | 6090 |
| - dividendlərin alınması | (22800) |
| **Cəmi** | **(47710)** |

**(5) Ehtiyatlar üzrə baş verən dəyişiklik**

Bu məbləğ müəssisənin mühasibat balansına əsasən ehtiyatların hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin daxilolmalarını artıran mənfi və ya müvafiq olaraq – azaldan müsbət fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|
| - Ehtiyatlar | 61300 - 144870 = | **83570** |

**(6) Əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri üzrə baş verən dəyişiklik**

Bu məbləğ müəssisənin mühasibat balansına əsasən qısamüddətli əməliyyat debitor borclarının və sair qısamüddətli aktivlər hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin daxilolmalarını artıran mənfi və ya müvafiq olaraq – azaldan müsbət fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|
| - Alıcıların və sifarişçilərin qısamüddətli debitor borcları | 81450 - 8500 = | 72950 |
| **- Tikinti müqavilələri üzrə qısamüddətli debitor borcları** | **8000 - 0 =** | **8000** |
| Cəmi Qısamüddətli debitor borcları | 88450 - 8500 = | (80950) |
| - Sair qısamüddətli aktivlər | **9000 - 13000 =** | **4000** |
| **Cəmi** | 97450 - 21500 = | **(76950)** |

**(7) Əməliyyat kreditor borcları və hesablamalar üzrə baş verən dəyişiklik**

Bu məbləğ müəssisənin mühasibat balansına və maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən qısamüddətli əməliyyat kreditor borclarının və digər müvafiq öhdəliklərin hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin daxilolmalarını artıran müsbət və ya müvafiq olaraq – azaldan mənfi fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|
| - Qısamüddətli kreditor borcları | 501840 - 514400 = | (12560) |
| - Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 5900 - 2700 = | 3200 |
| - Sair qısamüddətli öhdəliklər | **34000 - 0 =** | **34000** |
| **Cəmi** | 541740 - 517100 = | **24640** |

**(8) Ödənilmiş (qaytarılmış) mənfəət vergisi**

Bu məbləğ müəssisənin mühasibat balansına, xərclərin funksiyalarına görə mənfəət və zərər haqqında hesabatlara əsasən vergi orqanlarına hesabat dövrü ərzində pul vəsaitlərinin daxilolmalarını azaldan ödənilmiş (qaytarılmış) mənfəət vergisi məbləği aşağıdakı hesablamalarla göstərilir:

| | |
|---|---|
| - Əvvəlki dövr üzrə cari vergi öhdəlikləri | (18800) - mühasibat balansına əsasən |
| - Əvvəlki dövr üzrə təxirə salınmış vergi öhdəlikləri | (3200) - mühasibat balansına əsasən |
| - Hesabat dövründə hesablanmış vergi öhdəliyi | (11380) - mənfəət və zərər haqqında hesabata əsasən |
| - Hesabat dövrü üzrə cari vergi öhdəlikləri | 5800 - mühasibat balansına əsasən |
| - təxirə salınmış vergi öhdəlikləri | 2200 - mühasibat balansına əsasən |
| Cəmi ödənilmiş (qaytarılmış) mənfəət vergisi | **(25380)** |

**(9) Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları**

Bu məbləğ müəssisənin balansında və maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərində göstərilmiş məlumatlar əsasında pul vəsaitlərinin xaricolmalarını artıran aşağıdakı kimi hesablanır:

| | |
|---|---|
| - Hesabat dövrünün əvvəlinə torpaq, tikili və avadanlıqların dəyəri; | 501800 |
| - Hesabat dövründə; | |
| Tikilinin yenidən qiymətləndirilməsi | 90000 |
| Avadanlığın satışı | (146800) |
| Maşının satışı | (80000) |
| - Hesablanılmış amortizasiya | (57700) |
| - Hesabat dövrünün sonuna torpaq, tikili və avadanlıqların dəyəri; | (427300) |
| **Cəmi** | **(120000)** |

**(10) Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları**

Bu məbləğ müəssisənin maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərində göstərilmiş məlumatlar əsasında pul vəsaitlərinin daxilolmalarını artıran aşağıdakı kimi hesablanır:

| | |
|---|---|
| - Hesabat dövrünün əvvəlinə avadanlığın balans dəyəri | 146800 |
| - Hesabat dövrünün əvvəlinə maşının balans dəyəri | 80000 |
| - Hesabat dövründə avadanlığın satışından mənfəət | 30200 |
| - Hesabat dövründə maşının satışından zərər | (8000) |
| **Cəmi** | **249000** |

**(11) Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin xaricolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına əsasən iştirak payı metodu ilə uçota alınmış investisiyaların hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin daxilolmalarını artıran mənfi və ya müvafiq olaraq – azaldan müsbət fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | | Əvvəlki dövr | | |
|---|---|---|---|---|---|
| - Asılı müəssisələrdə investisiyalar | 79000 | - | 24000 | = | **(55000)** |

**(12) Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına və maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən sair uzunmüddətli maliyyə aktivləri və sair uzunmüddətli aktivləri hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin daxilolmalarını artıran mənfi və ya müvafiq olaraq – azaldan müsbət fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | | Əvvəlki dövr | | |
|---|---|---|---|---|---|
| - Uzunmüddətli verilmiş borclar | 20000 | - | 12000 | = | **(8000)** |
| - Digər uzunmüddətli aktivlər | 29400 | - | 14200 | = | (15200) |
| **Cəmi** | **49200** | **-** | **26200** | **=** | **(23200)** |

**(13) Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına əsasən sair maliyyə aktivləri hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin daxilolmalarını artıran mənfi və ya müvafiq olaraq – azaldan müsbət fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | | Əvvəlki dövr | | |
|---|---|---|---|---|---|
| - Qısamüddətli verilmiş borclar | 5000 | - | 11000 | = | **6000** |

**(14) Dividendlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına, xərclərin funksiyalarına görə mənfəət və zərər haqqında hesabata və maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən aşağıdakı kimi hesablanır:

| | |
|---|---|
| - Əvvəlki dövründə törəmə (asılı) müəssisələrin debitor borcları | 17000 – ( mühasibat balansı) |
| - Hesabat dövründə hesablanmış törəmə (asılı) müəssisələrin debitor borcları | 22800 – (mənfəət və zərər haqqında hesabat) |
| - Hesabat dövründə törəmə (asılı) müəssisələrin debitor borcları | (17300) - ( mühasibat balansı) |
| **Cəmi** | **22500** |

**(15) Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına, xərclərin funksiyalarına görə mənfəət və zərər haqqında hesabata və maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən aşağıdakı kimi hesablanır:

| | |
|---|---|
| - Əvvəlki dövründə faizlər üzrə qısamüddətli debitor borcları | 2000 - ( mühasibat balansı) |
| - Hesabat dövründə hesablanmış faizlər üzrə qısamüddətli debitor borcları | 8800 - (mənfəət və zərər haqqında hesabat) |
| **Hesabat dövründə faizlər üzrə qısamüddətli debitor borcları** | **(1800) - mühasibat balansına əsasən** |
| **Cəmi** | **9000** |

**(16) Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına və maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən ödənilmiş nominal (nizamnamə) kapitalın, emissiya gəlirinin hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin daxilolmalarını artıran müsbət və ya müvafiq olaraq – azaldan mənfi fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | | Əvvəlki dövr | | |
|---|---|---|---|---|---|
| - Ödənilmiş nominal (nizamnamə) kapital | 30000 | - | 10000 | = | 20000 |
| - Emissiya gəliri | 8000 | - | 2000 | = | 6000 |
| **Cəmi** | 38000 | - | 12000 | = | 26000 |

Səhmlərin satılması ilə əlaqədar 2000 manat məbləğində pul vəsaitlərinin xaricolmalarını nəzərə alaraq, onların buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları **28000** manat məbləğində hesablanılmışdır.

**(17) Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına əsasən geri alınan məhdud tədavül müddətli imtiyazlı səhmlərin hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin xaricolmalarını artıran mənfi fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | Əvvəlki dövr | | |
|---|---|---|---|---|
| - Geri alınan məhdud tədavül müddətli imtiyazlı səhmlər (uzunmüddətli) | 3000 | 7500 | = | (4500) |

**(18) Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına əsasən qısamüddətli borcların hesabat dövrü ilə əvvəlki dövrü arasında olan pul vəsaitlərinin daxilolmalarını artıran müsbət fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | | Əvvəlki dövr | | |
|---|---|---|---|---|---|
| - Qısamüddətli borclar | 7000 | - | 4000 | = | 3000 |

**(19) Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına əsasən uzunmüddətli borcların hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin xaricolmalarını artıran mənfi fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | | Əvvəlki dövr | | |
|---|---|---|---|---|---|
| - Uzunmüddətli borclar | 7500 | - | 14000 | = | **(6500)** |

**(20) Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları**

Bu məbləğ maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən uzunmüddətli bank kreditlərinin hesabat dövrü ilə əvvəlki dövrü arasında olan dəyişikliyindən asılı olaraq pul vəsaitlərinin xaricolmalarını artıran mənfi fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | | Əvvəlki dövr | | |
|---|---|---|---|---|---|
| - Uzunmüddətli bank kreditləri | 332590 | - | 408500 | = | **(75910)** |

**(21) Maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları**

Bu məbləğ maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən maliyyə icarəsi ilə uzunmüddətli öhdəliklərin hesabat dövrü ilə əvvəlki dövrü arasında olan pul vəsaitlərinin xaricolmalarını artıran mənfi fərqlə aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | | Əvvəlki dövr | | |
|---|---|---|---|---|---|
| - Maliyyə icarəsi ilə uzunmüddətli öhdəliklər | 20120 | - | 25000 | = | **(4880)** |

**(22) Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları**

Bu məbləğ müəssisənin mühasibat balansına və xərclərin funksiyalarına görə mənfəət və zərər haqqında hesabata əsasən aşağıdakı kimi hesablanır:

| | |
|---|---|
| - Hesabat dövrü üzrə xalis mənfəət | 46130 |
| - Əvvəlki dövr üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş) zərər | 7270 |
| - Hesabat dövrü üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş) zərər | (30600) |
| - Kapital sahiblərinə bölüşdürülmələr (dividendlər) | **22800** |

Bundan başqa, səmhlərin buraxılışı ilə əlaqədar **2000** manat məbləğində xərclər də nəzərə alınmaqla dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları **24800** manat məbləğində hesablanılmışdır.

**(23) Faizlər şəklində pul vəsaitlərinin xaricolmaları**

Bu məbləğ müəssisənin xərclərin funksiyalarına görə mənfəət və zərər haqqında hesabata və maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən aşağıdakı kimi hesablanır:

| | |
|---|---|
| - Əvvəlki dövr üzrə qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 0 - ( mühasibat balansı) |
| - Hesabat dövründə hesablanmış qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 6090 - (mənfəət və zərər haqqında hesabat) |
| Hesabat dövrü üzrə - qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | (5600) - ( mühasibat balansı) |
| **Cəmi** | **(490)** |

**(24) İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)**

Bu məbləğ müəssisənin mühasibat balansına və maliyyə hesabatlarına əlavə edilmiş izahlı qeydlərə əsasən aşağıdakı kimi hesablanır:

| | Hesabat dövrü | | Əvvəlki dövr |
|---|---|---|---|
| - Pul vəsaitləri və onların ekvivalentləri | 317800 | - | 251500 = 66300 |
| - Bank overdraftı | (5000) | - | (8500) = 3500 |
| - Bank hesablaşma hesabı | 312800 | - | 243000 = **69800** |

**Ədəbiyyat**

1. "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üzrə" kommersiya təşkilatları üçün 5 №-li milli mühasibat uçotu standartı.

2. "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üzrə" kommersiya təşkilatları üçün 5 №-li milli mühasibat uçotu standartının tətbiqi üzrə şərhlər və tövsiyələr.

3. H.Əsədov, E.Cəfərov, V.Şelaginov, M.Qafarov, İ.Atayev. "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat üzrə" Kommersiya təşkilatları üçün milli Mühasibat uçotu Standartı. İcmal İnformasiya. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. Azərbaycan Elmi-Texniki İnformasiya və Texniki-İq Tədqiqatlar İnstitutu. Bakı, 2006.

**Э.О.Джафаров**

**Некоторые теоретические аспекты применения Национального Стандарта Бухгалтерского Учета "О движении денежных средств".**

**РЕЗЮМЕ**

В условиях глобализации экономических отношений и как следствие этого с переходом подготовки финансовой отчетности в соответствии МСФО изменились цель и форма представления этой отчетности. Составление и представление финансовой отчетности о движении денежных средств является неотъемлемой частью финансовой отчетности коммерческих организаций.

В настоящей статье с иллюстративными примерами представлены особенности подготовки отчета о движении денежных средств, а также основные факторы, влияющие на составление указанного отчета, включая вопросы раскрытия финансовой информации в учетной политике и пояснительных записках.

**E.O.Dzhafarov**

**Some theoretical aspects of the National Accounting Standard «Cash Flow».**

**SUMMARY**

In the conditions of globalization of economic relations and as a consequence of it, with the transition to the preparation of the financial statements in accordance with IFRS the purpose and form of this reporting has changed. Preparation and presentation of financial statements of cash flows is an integral part of the financial statements of commercial organizations.

In this article with illustrative examples are given peculiarities of preparation cash flow statements by commersial orqanization, as wel as the major factors influencing to preparation of this report, including matters of the disclosure of the financial information in accounting policies ands explanatory notes.